# "Qərbi Azərbaycana gedib riyaziyyat müəllimi işlədim"

## Firidun Həmzəyevin həyat hekayəsi



Qabaqcıl təhsil işçisi, "Əməkdar müəllim" Firidun Həmzəyev. Təhsil ictimaiyyəti onu ümumi təhsil sahəsinin simalarından biri kimi yaxşı tanıyır. 46 illik karyera ömrünün 7 ilini çıxmaq şərti ilə bütün həyatını təhsilə həsr edib. Amma artıq ömrünün təqaüdçü dövrü başlayıb. Təhsildən danışsaq, müzakirələrində iştirak etdiyi, qərarvermədə rol oynadığı, hazırlanmasına töhfə verdiyi təhsil qanunlarını bir qəzet yazısına sığdıra bilməzdik. Biz də onunla ömrünün vacib hadisələrindən danışdıq.




Həyatımı passiv təqaüdçü olaraq davam etdirmək niyyətim yoxdur. Ailəmin işləri ilə məşğul olacağam. 5 nəvəm var, onlara köməyim dəyə bilər. Əvvəl vaxtım olmurdu, artıq onlarla daha çox vaxt keçirəcəyəm.

Mənim üçün qürurvericidir ki, fəaliyyətimi gənc nəslin təlim-tərbiyəsinə, ümumi təhsildə qayda-qanunların hazırlanmasına, həmin qaydaların yerlərdə həyata keçirilməsinə, bir sözlə, ümumi təhsilin inkişafına həsr etmişəm.

1964-74-cü illərdə oxuduğum Amasiya rayonu Mağaracıq kənd orta məktəbində hamı azərbaycanlı idi. 1000 nəfərə yaxın əhalisi olan kənddə 1 erməni belə yaşamırdı. Bir maraqlı məsələni danışmaq istəyirəm. Məktəbimizdə erməni dili keçilmirdi.

X sinifdə oxuyanda Ermənistanın təhsil naziri məktəbimizə gəldi. Qabaqda da oturmuşdum. Mənimlə ermənicə söhbət eləməyə çalışdı. Danışa bilmədim. Ona məktəbdə erməni dili keçilmədiyi bildiriləndə təcili göstəriş verdi və məktəbimizdə erməni dilinin tədrisinə başlanıldı.

Ali təhsilimi bitirib öz kəndimizə müəllimliyə təyinat aldım. Bu təyinatın da xüsusi tarixçəsi var. Həmin vaxt Ermənistana təyinat yox idi. Mənim üçün 2 respublikanın "Qosplan"ı (Dövlət Plan Komitəsi - red.) vasitəsilə 1 yer aldılar, gedib kəndimizdə riyaziyyat müəllimi işlədim.

İşğaldan azad edilmiş torpaqlarımızda olan vəziyyət hazırda Qərbi Azərbaycan ərazisində yaşanır. Bu da o deməkdir ki, Qərbi Azərbaycana qayıdış reallaşsa, ərazi cəhətdən problem olmayacaq, sadəcə dağıdılmış evlərin bərpası ilə məşğul olacağıq.

### "Mənim üçün qürurvericidir ki..."

*- 40 ildən çoxdur idarəetmədə təmsil olunan biri üçün təqaüdə alışmağın asan olmayacağını düşünürük...*

- 46 il səhər saat 9-da işə başlayıb axşam saat 6-da işdən çıxan bir adam üçün yeni rutinə alışmaq təbii ki, asan olmayacaq. Ancaq həyatımı passiv təqaüdçü olaraq davam etdirmək niyyətim yoxdur. Ailəmin işləri ilə məşğul olacağam. 5 nəvəm var, onlara köməyim dəyə bilər. Əvvəl vaxtım olmurdu, artıq onlarla daha çox vaxt keçirəcəyəm.

*- Öz fəaliyyətinizi necə qiymətləndirirsiniz?*

Əmək fəaliyyətimə 1979-cu ildə Ermənistanın Amasiya rayonunda İcraiyyə Komitəsində başlamışam. Ermənistanın azərbaycanlılara qarşı təzavüzü başlayanda mən Bakıda Partiya Məktəbində oxuyurdum. Təcavüz səbəbindən doğma torpaqlara qayıda bilmədim. 1989-cu ilin dekabrından Yasamal rayon Təhsil şöbəsinə müdir müavini təyin edildim. Rayon təhsil şöbələri ləğv ediləndə Bakı Şəhər Təhsil İdarəsində Ümumi və məktəbəqədər təhsil şöbəsində sektor müdiri olaraq çalışdım. Elm və Təhsil Nazirliyində 12 il Ümumi və məktəbəqədər təhsil şöbəsinin sektor müdiri işləmişəm. Mənim üçün qürurvericidir ki, fəaliyyətimi gənc nəslin təlim-tərbiyəsinə, ümumi təhsildə qayda-qanunların hazırlanmasına, həmin qaydaların yerlərdə həyata keçirilməsinə, bir sözlə, ümumi təhsilin inkişafına həsr etmişəm. Bu gün əminliklə deyə bilərəm ki, həm bir vətəndaş, həm də pedaqoq kimi təhsilə xidmət arzum olub və bu arzumu da reallaşdırmışam. Artıq yaş öz sözünü deyir və düşündüm ki, işdən ayrılmaq vaxtıdır. Bu barədə rəhbərliyə müraciət etdim. İstəyimi qəbul etdilər və fevralın 1-dən təqaüdə çıxdım.

*- Əməyinizin qarşılığını almaq yaqin ki, xoş hissdir...*

- Nazirin əmri ilə uzun müddət dövlət qulluğunda fəaliyyətimə görə "Fəxri Fərman"la təltif edildim. Üstəlik, bu, əməyimə verilən ilk qiymət deyil. Buna qədər Prezident İlham Əliyevin mənimlə bağlı 2 sərəncamı olub. 2012-ci ildə "Tərəqqi" medalı ilə təltif edilmişəm, 2018-ci ildə isə "Əməkdar müəllim" adına layiq görülmüşəm. 2025-ci ildə 65 yaşım olanda da nazir Emin Əmrullayevin əmri ilə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanına layiq görüldüm.

### Mühit, məktəb, yoxsa ailə?

*- Qərbi Azərbaycandansınız. Yetişdiyiniz o mühit, oxuduğunuz məktəb, doğulduğunuz ailə - sizcə, formalaşmağınızda hansı amil daha böyük rola malikdir?*

- Hər üçünün rolu var. Ailələrdə uzun müddət uşaq olmayıb və mən 12 il sonra doğulmuş bir uşaq idim. Sonradan bacım da dünyaya gəlib. Atam partiya işində fəal iştirak edib, uzun müddət üçüncü katib, ikinci katib işləyib. Nəzarət komitəsinin sədri olub. 37 il atam rayon partiya komitəsində büro üzvü, 38 il rayon sovetinin deputatı olub. Belə bir ailədə böyümüşəm və gözümü açandan bu proseslərin içərisində olmuşam. Məktəb də çox önəmlidir. 1964-1974-cü illərdə oxuduğum Amasiya rayonu Mağaracıq kənd orta məktəbində hamı azərbaycanlı idi. 1000 nəfərə yaxın əhalisi olan kənddə 1 erməni belə yaşamırdı. Bir maraqlı məsələni danışmaq istəyirəm. Məktəbimizdə erməni dili keçilmirdi.

*- Bu, yaxşı idi yəni?*

- Keçilsə, daha yaxşı olardı təbii. Şəhərə gedəndə orada eşidirdik, televiziya, radio hamısı ermənicə idi. Bəzi sözləri eşidərək öyrənmişdim. Amma məktəbdə keçilmədiyindən hərfləri belə bilmirdik. X sinifdə oxuyanda Ermənistanın təhsil naziri məktəbimizə gəldi. Qabaqda da oturmuşdum. Mənimlə ermənicə söhbət eləməyə çalışdı. Danışa bilmədim. Ona məktəbdə erməni dili keçilmədiyi bildiriləndə təcili göstəriş verdi və məktəbimizdə erməni dilinin tədrisinə başlanıldı. Yaxşı yadımdadır, bizə erməni dili müəllimi 25 kilometr məsafədə Leninakandan gəlirdi. 1 il içərisində erməni dilini elə öyrəndim ki, İcraiyyə Komitəsində işə başlayanda ermənicə hazırladığım arayışlar ermənilərin hazırladıqları ilə müqayisə olunur, məni ermənilərə nümunə çəkirdilər ki, türk sizdən yaxşı bilir erməni dilini.

*- Müəllimlik fəaliyyətinə də burada başlamısınız?*

- 1974-cü ildə Bakı Dövlət Universitetinin Mexanika-Riyaziyyat fakültəsinə qəbul olunanda 16 yaşım tamam deyildi, pasportum belə yox idi. 5 il təhsil aldım. Ali təhsilimi bitirib öz kəndimizə müəllimliyə təyinat aldım. Bu təyinatın da xüsusi tarixçəsi var. Həmin vaxt Ermənistana təyinat yox idi. Mənim üçün 2 respublikanın "Qosplan"ı (Dövlət Plan Komitəsi - red.) vasitəsilə 1 yer aldılar, gedib kəndimizdə riyaziyyat müəllimi işlədim. 2 il müəllim işləyəndən sonra Amasiya Rayon İcraiyyə Komitəsində, rayon Partiya Komitəsində çalışmışam.




### Qərbi Azərbaycana qayıdış reallaşsa...

*- Bu, günlərdə hər kəs Qərbi Azərbaycana qayıdışın reallaşacağı günü gözləyir.*

- Prosedə mən də iştirak edirəm. Qərbi Azərbaycan icmasında təmsil olunuram, görüşlərə qatılıram. Bu istiqamətdə dövlətin apardığı siyasətə uyğun iş gedir və düşünürəm ki, bunun mütləq bir nəticəsi olacaq.

*- Qayıdıb o torpaqlarda görəcəklərinizə hazırsınızmı?*

- Qərbi Azərbaycanın Amasiya rayonu elə bir rayondur ki, kəndlərinin bir qismi Türkiyə ilə, bir qismi Gürcüstanla həmsərhəddir. Yəni Türkiyə ilə Gürcüstanın kəsişməsində yerləşir. Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə olan o kənddə nə biz yaşayanda, nə də bizdən sonra erməni yaşamayıb. 10-15 il əvvəlin şəkillərində evlər yerində dururdu. Amma indiki şəkillərdən görünür ki, söküblər. 1-2 aylıq yaylaq kimi istifadə ediblər. Gedəndə də evləri söküb aparıblar. İşğaldan azad edilmiş torpaqlarımızda olan vəziyyət hazırda Qərbi Azərbaycan ərazisində yaşanır. Bu da o deməkdir ki, Qərbi Azərbaycana qayıdış reallaşsa, ərazi cəhətdən problem olmayacaq, sadəcə dağıdılmış evlərin bərpası ilə məşğul olacağıq.

*- Yaxşı ki, dediyiniz məqamdan danışdınız. Heyifsləndiyiniz anlar necə, olubmu?*

- Təəssüf doğuran məqam yadıma gəlmir. Məsələn, o vaxt rayon partiya komitəsində işləmək istəyirdim, alınmayanda çox təəssüflənmişdim. Sonradan gördüm ki, həyatın axarı doğru istiqamətdə gedib.

**Ruhiyyə DAŞSALAHLI**